## GƏDƏBƏY DAYAQ MƏNTƏQƏSİ



**Ünvan: AZ 2100, Gədəbəy rayonu, Qaruday kəndi**
**Direktor: Şahin Əli oğlu Zeynalov**
**Mobil: (+99450) 973-35-15**
**E-mail:*gadabay.dm@bk.ru***



Gədəbəy Dayaq Məntəqəsi Azərbaycan SSR Nazirlər Sovetinin 06 mart 1972-ci il 58 nömrəli Qərarı və Kənd Təsərrüfatı Nazirliyinin 14 aprel 1972-ci il 236 nömrəli əmri ilə Azərbaycan ET Yemçilik, Çəmənçilik və Otlaqlar İnstitutunun struktur tabeliyində yaradılmışdır. Hazırda Gədəbəy Dayaq Məntəqəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 aprel 2015-ci il 109 nömrəli Qərarı ilə Əkinçilik ET İnstitutunun struktur tabeliyndə fəaliyyət göstərir.

Gədəbəy DM-nin təşkilati strukturunda yem bitkilərinin becərilmə texnologiyası və toxumçuluğu şöbəsi fəaliyyət göstərir. Burada 6 nəfər çalışır, onlardan 2 nəfəri elmi işçidir. Gədəbəy DM-nə təhkim olunmuş ümumi torpaq sahəsi 20 hektardır, ondan 14 hektarı k/t-na və əkinə yaralıdır. Burada əsasən yem bitkilərinin sınağı və otlaqların idarə edilməsi ilə bağlı tədqiqatlar aparılır.Büdcədən maliyələşən və qismən təsərrüfat hesablı dövlət müəssisəsidir.



**Fəaliyyət istiqamətləri:**

- Əkinçilik ET İnstitutu tərəfindən verilmiş sifariş əsasında elmi-tədqiqat işlərinin yerinə yetirilməsində bilavasitə iştirak etməklə, icrasının təmin edilməsi;
- Otlaq və biçənəklərin yaxşılaşdırılması, mədəni otlaq sahəsinin yaradılması;
- Yem bitkilərinin toplanması, qiymətləndirilməsi, nümayiş əkinlərinin təşkili.



